# Qəbələdə yay turizmi mövsümünə start verilib

***Qəbələnin otel və istirahət mərkəzləri yay turizm mövsümünün başlanması ilə əlaqədar vətəndaşlara göstərilən xidmətlərə görə qiymətləri xeyli ucuzlaşdırıblar.***

İstirahət mərkəzlərində qonaqlara müasir otel xidmətləri ilə yanaşı, Azərbaycan və Avropanın ləziz yeməkləri təklif olunur. Rayonun istirahət mərkəzləri otel xidmətlərinə 15-20 faizədək, restoran xidmətlərinə isə 10 faizədək endirim ediblər. Meşələrdə və çayların sahilində yerləşən istirahət güşələrində üç otaqlı kottecin bir günlük kirayə haqqı 90-100 manatdan 60-70 manata endirilib. Rayon mərkəzindəki otellərdə isə iki nəfərlik otaqları indi bir gün üçün 70-100 manata, kiçik otellərdə isə bir otağı 40 manata sifariş etmək olar.

Qəbələyə ailəvi gələn və bir neçə gün rayonda qalıb dincəlmək istəyən turistlər əsasən meşə və çay kənarındakı kotteclərdə və kirayə verilən yüksək şəraitə malik kənd evlərində istirahət etməyə üstünlük verirlər. Rayonun dağlıq və meşəlik ərazilərində yerləşən Bum və Vəndam qəsəbələrində, Nohurqışlaq, Duruca, Qəmərvan, Bunud və Həmzəli kəndlərində bir gün üçün 20 manatdan 100 manatadək qiyməti olan kənd evləri tapmaq mümkündür.



Rayonun 24 müasir otel və istirahət mərkəzindən Qəbələ Turizm və İnformasiya Mərkəzinə verilən məlumata görə bu il yanvarın 1-dən mayın 15-dək rayona 90 min turist gəlib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Qəbələyə gələn turistlərin təxminən 50 min nəfərdən çoxu əcnəbilərdir. Həmçinin ötən il Qəbələyə 242 min 125 nəfər turist gəlib. Bunun da 101 min 650 nəfəri yerli, 140 min 160 nəfəri əcnəbi turistlərdir. Qəbələyə gələn turistlərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, İraq, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, Pakistan və Misirdən olub.

Rayonda turizmin inkişaf dinamikasına nəzər salsaq görərik ki, Qəbələyə turist axını hər il yüksələn templə davam edir.

**"Qəbələ"**

# Meyvəçilik və tərəvəzçilik məhsullarının istehsalına maraq artıb

***Rayonumuzda kənd təsərrüfatının ayrı-ayrı sahələri, xüsusən də meyvəçilik və tərəvəzçilik məhsullarının istehsalına diqqət artıb. Hazırda meyvə bağlarına və tərəvəz sahələrinə aqrotexniki qaydada qulluq edilməsinin qızğın çağıdır.***



Kəndlərdə fermerlər, ayrı-ayrı torpaq sahibləri, fiziki şəxslər bol tərəvəz məhsullarının yetişdirilməsi üçün ərazilərin alaqdan təmizlənməsi, zəif inkişaf etmiş sahələrə üzvi və mineral gübrələrin verilməsi ilə məşğuldurlar. Keçən ildəkindən xeyli çox sahədə tərəvəz əkilmişdir. Bu təsadüfi deyil. Çünki bazarda həmişə bu məhsullara tələbat çox olub. Rayonumuza gələn əcnəbi turistlərin sayının artması da ekoloji cəhətdən təmiz yerli tərəvəz məhsuluna tələbatı çoxaldıb.

Tərəvəz məhsullarından əsasən pamidorun xarici ölkələrə ixracının çoxalması kəndlinin bu məhsulun yetişdirilməsinə marağını artırıb.

Məhsul bolluğu alıcıların da ürəyincədir. Bu il bazarlarda kartof, soğan, kələm, pomidor, xiyar məhsulları daha boldur. Yaxşı haldır ki, əvvəllər bu məhsulların əksər hissəsi xaricdən və digər rayonlardan gətirilirdi. İndi isə bu məhsulların çoxu rayonumuzda faraş yetişdirilir və bazara çıxarılır.

Rayonumuzda bağçılıq həmişəki kimi ənənəvi və önəmli sahə olaraq qalır.

İlkin müşahidələr bu il bağlarda bol meyvə olacağından xəbər verir. Bununla belə bağbanlar məhsulları ziyanvericilərdən qorumaq üçün ardıcıl becərmə, dərmanlama işi aparırlar.

**«Qəbələ»**

## *Mütəxəssis tribunası*

# Ağaclara düzgün qulluq edilməsi vacib şərtdir

***Yazın gəlişi, havaların gündən-günə istiləşməsi bütün təbiəti oyatdığı üçün bağlarda, baxçalarda tumurcuqlayan, çiçəkləyən və yarpaqlayan meyvə ağacları özlərinə intensiv qulluq tələb edirlər. Təbii ki, mövsümün sonunda bağından bol məhsul toplamaq istəyən, lakin bağa lazımi qulluq göstərməyən kəndli nəinki istədiyi qədər məhsulu yığa bilmir, hətta çox vaxt ağaclarının quruduğunu görür.***

Ağaclara düzgün qulluq üçün yaz vaxtı ilkin olaraq gövdə ətrafının bellənməsinin vacib olduğunu deyən rayon kənd təsərrüfatı idarəsinin bitkiçilik sektorunun müdiri Elmdar Şərifov müxbirimizlə müsahibəsində həm də bu işin düzgün icrasını təcrübi olaraq izah edib.

Elmdar Şərifov deyir ki, yaz vaxtı kökün normal tənəffüs və sualma qabiliyyətini artırmaq üçün ilk növbədə mütləq ağacın gövdə ətrafı bellənməli və torpaq yumşaldılmalıdır.

Lakin bir qayda olaraq bilmək lazımdır ki, köklər mərkəzdən kənara doğru düzünə istiqamətdə yerləşdiyi üçün belin ağzının gövdəyə paralel vurulması düzgün deyil. Əgər ağaclarda gövdə ətrafı bu cür bellənərsə köklər kəsilər və bu da sonradan ağacın zədələnməsinə, yaxud bütünlüklə qurumasına səbəb ola bilər. Ona görə də bel ağac ətrafında gövdəyə köndələn qoyulmalı və köklər burada həm gövdənin özünə, həm də torpaq altında bir-birinə yaxın olduqlarına görə 5-6 santimetr dərinlikdə qazılmalıdır. Gövdədən uzaqlaşdıqca belin dərinliyi tədricən artırılmalıdır. Artıq gövdədən 20-30 santimetr aralandıqdan sonra beli torpağın 25-30 santimetrinədək dərininə salmaq olar. Əvvəlcə gövdəyə yaxın yerdə beli zəif şəkildə köndələn vurmaqla, sonra isə gövdə ətrafında bir qədər dərinə salmaqla köklərin kəsilmə ehtimalının qarşısı alınmalıdır.

"Gövdə ətrafı dairə gövdədən təxminən 50-60 santimetr aralı radiusda, gövdə ətrafında isə təxminən bir metrə qədər diametrdə ola bilər. Məhz bir metrlik dairənin daxilində torpaq mütləq yumşaldılmalı və köklərin normal inkişafı üçün şərait yaradılmalıdır. Gövdə ətrafının yaz bellənməsi həm köklərin qışdan yığdığı rütubətin həddən artıq çox toplanmasının qarşısını alır, həm də təbəxuru (buxarlanma) artırır. Eyni zamanda, sonrakı mərhələdə torpaq yumşaldığından köklərin tənəffüs prosesi güclənir və yerüstü hissənin normal inkişafı gələcəkdə təmin olunur. Məlum proses yerinə yetirildikdən sonra isə ağac gövdəsini yazda gün yanğısından qorumaq üçün gövdə mütləq əhənglə ağardılmalıdır", - deyə Elmdar Şərifov izah edib.

**"Qəbələ"**

## *Mütəxəssis məsləhəti*

# Keyfiyyətli baramanı necə yetişdirmək olar

***Azərbaycanda qədim ənənələrə malik baramaçılığın və ipəkçiliyin inkişafına son illər dövlət dəstəyi daha da gücləndirilib. İxracyönümlü sahə olan baramaçılıq kənd yerlərində məşğulluğun təmin edilməsində də mühüm rol oynayır. "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda 2025-ci ilədək yaş barama istehsalının 6 min tona çatdırılması nəzərdə tutulur.***

***Hazırda rayonlarda kümçülərə ipəkqurdları toxumları paylanılıb və bəslənmə dövrüdür. Bu sahənin inkişafında mühüm amillərdən birinin də keyfiyyətli barama yetişdirmək olduğunu nəzərə alsaq, kümçülər bəslənmə dövründə nəyə diqqət yetirməlidirlər?***

AZƏRTAC Kənd Təsərrüfatı Nazirliyi bitkiçilik şöbəsinin müdiri İmran Cümşüdovun ipəkqurdunun bəslənilməsinə dair aqrozootexniki tövsiyələrini təqdim edir.

**İpəkqurdu yemlənəcək sahələrin hazırlanması**

Yemləmə otaqları qabaqcadan əhənglə ağardılmalı, 40 faizli formalin məhlulu ilə dezinfeksiya olunmalıdır. Otaqların əvvəlcədən qapı və pəncərələrindəki açıq sahələr tam tutulmalıdır (bunu xamır hazırlamaqla etməli). Dezinfeksiya olunmuş otaqlar 2-3 gün tam hermetik (bağlı) şəkildə saxlanıldıqdan sonra qapı və pəncərələr açılmalı, havalandırılmalıdır. Yemləmə otaqlarında istilik yaradılmalı və formalinin iyinin kəsilməsi məqsədilə tez-tez su çilənməlidir.

**Kiçik və böyük yaşlarda qurdların bəslənməsi**

Toxumdan çıxan andan ipəkqurdu artıq 1-ci yaşda olur. Birinci yaşda olan qurdların yemləmə müddəti orta hesabla 3 gün çəkir. Üç gündən sonra qurdların baş hissəsi ağarmağa başlayır ki, bu, artıq onun yuxuya getməsinin əlamətidir. Birinci yaşında qurdlar 1,5-2 gün müddətində yuxuda olur. Yuxuda olan qurdlara yem vermək olmaz. Ona görə ki, qurdlarda qabıqdəyişmə prosesi getdiyindən onlara yem verilməsinə ehtiyac yoxdur. Yuxudan ayılmış qurdlar artıq 2-ci yaşında olur.

**Qurdların yemlənməsi**

Birinci yaşda olduğu kimi, ikinci və üçüncü yaşlarda da yemləmə müddəti orta hesabla 3-4 gün çəkir. Dördüncü yaşda yemləmə müddəti orta hesabla 5 gün, yuxusu isə 2 gün, beşinci yaşda yemlə-



mə müddəti 7-8 gün, yuxusu isə 2,5-3 gün çəkir. Birinci, ikinci və üçüncü yaşlarda qurdlar kiçik doğranmış yarpaqlarla yemləndirilməlidir. Dördüncü və beşinci (böyük) yaşlarda isə yarpaqları zoğla birlikdə vermək olar. Bu, qurd bəslənən tərəcələrdə (mərtəbələrdə) məsaməlik yaratmaqla havalandırma prosesini gücləndirir və kiflənmənin qarşısını alır. Beşinci yaşda qurdları budaqlarla birgə yemləmək olar. Bir şərtlə ki, budaqlar tərəcədə çarpaz şəkildə qoyulsun.

**Temperatur və nisbi rütubətin nizamlanması**

İpəkqurdunun bəslənməsində temperatur və nisbi rütubətin düzgün nizamlanması mühüm əhəmiyyət kəsb edir. Otaqda temperaturu təyin etmək üçün adi termometrdən, nisbi rütubəti təyin etmək üçün isə psixrometrdən istifadə olunur və bunlar mütləq kümxanalarda (yemləmə otaqlarında) olmalıdır. Kiçik yaşlarda yemləmə otaqlarında temperatur və nisbi rütubət aşağıdakı kimi olmalıdır:

Birinci, ikinci və üçüncü yaşlarda temperatur 25-26$^0$ C, nisbi rütubət isə 65-75 faiz; dördüncü yaşda temperatur 23-24$^0$ C, nisbi rütubət isə 65-75 faiz; beşinci yaşda isə temperatur 22-23$^0$ C, nisbi rütubət isə 65-75 faiz olmalıdır. Əgər açıq havada temperatur yuxarıda göstəriləndən yüksək olarsa, dördüncü və beşinci yaşlarında kümxanaların qapı, pəncərələri açılaraq havalandırılmalıdır.

**Künənin götürülməsi**

Yuxarıda qeyd edildiyi kimi, üçüncü, dördüncü və beşinci yaşlarda qurdların künəsi mütləq təmizlənməlidir. Birinci və ikinci yaşlarda qurdlar çox kiçik olduğundan künə dəyişilmir, üçüncü yaşda 1-2 dəfə, dördüncü yaşda 3 dəfə, beşinci yaşda isə 4-5 dəfə dəyişilməlidir.

Yemləmə müddətində hər 2 saatdan bir otaqlar havalandırılmalı, beşinci yaşda isə yaxşı olar ki, qapı və pəncərələr açılsın. Bir şərtlə ki, pəncərələr və qapılar torla bərkidilmiş olsun, kümxanaya zərərvericilər girməsin.

**Barama sarımaya hazırlıq**

İpəkqurdlarının saxlanması üçün el dilində sarıçiçək (tülpəng) adlanan yabanı alaq otu əvvəlcədən toplanmalı və kölgədə qurudulmalıdır. İpəkqurdunun barama sarımağa başlamasının ilk əlaməti onların bədənlərinin sarı (kəhraba) rəngli olmasıdır. Bu mərhələdə artıq şax tərəcələrə qoyulmalıdır. Qurdlar orta hesabla 3 günə barama sarıyır, 8-ci gün isə baramalar şaxdan yığılır və pürzədən təmizlənir. Sarınma və yığılma dövründə yemləmə otaqlarında temperatur 22-23$^0$ C, nisbi rütubət isə 60-65 faiz olmalıdır.

Toplanmış baramalar çeşidlənməlidir. Yararsız baramalar seçildikdən sonra yerdə qalan baramalar 8-10 kiloqramlıq, məsaməli qablarda (zənbillərdə) barama qəbulu məntəqələrinə təhvil verilməlidir.